**“Əczaçılıq fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. “Səhiyyə haqqında” Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1971-ci il, № 13, maddə 113; 1995-ci il, № 7, maddə 122) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. 13-cü maddənin:

birinci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasında müəyyənləşdirilmiş qaydada tibb və əczaçılıq fəaliyyəti ilə Azərbaycan Respublikasının, eləcə də xarici ölkələrin tibb və ya əczaçılıq üzrə ali (orta ixtisas) məktəblərini bitirmiş fiziki şəxslər və mülkiyyət formasından asılı olmayaraq bütün hüquqi şəxslər məşğul ola bilərlər”;

ikinci və üçüncü hissələri çıxarılsın.

2. 20-ci maddədən “intizam” sözü çıxarılsın.

3. 80-cı maddənin 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“Vətəndaşlara dərman vasitələri əczaçılıq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər tərəfindən buraxılır”.

II. (Qüvvədən düşüb) [1]

III. “Sanitariya-epidemioloji salamatlıq haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992-ci il, № 22, maddə 947) 27-ci maddəsinə aşağıdakıməzmunda abzas əlavə edilsin:

“Dövriyyədə olan dərman vasitələri barəsində müəyyən olunmuş sanitariya-gigiyena tələblərinə əməl olunmasına nəzarətin həyata keçirilməsi”.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 10 iyun 1997-ci il
№ 315-IQD

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 584**)

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 11 iyul 2000-ci il tarixli 906-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, № 8, maddə 584**) ilə Qanunun II hissəsi qüvvədən düşmüş hesab edilmişdir. Əvvəlki redaksiyada deyilirdi:

II. Azərbaycan SSR Ali Sovetinin 1984-cü il dekabrın 13-də qəbul etdiyi İnzibati hüquqpozmalar haqqında Azərbaycan Respublikasının Məcəlləsinə (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1984-cü il, № 23, maddə 198; 1985-ci il, № 9, maddə 112, № 11, maddə 130; 1986-cı il, № 5—6, maddə 24, № 13, maddə 93; 1987-ci il, № 15—16, maddə 153, № 21, maddə 215, № 24, maddə 250; 1988-ci il, № 1, maddə 1, № 5—6, maddə35, № 8, maddə 58, № 15, maddə 139, № 16, maddə 150, № 18—19, maddə 173, № 22—23, maddə 220; 1989-cu il, № 9, maddə 69; 1990-cı il, № 8, maddə 55, № 12, maddə 155; 1991-ci il, № 14, maddə 236; 1992-ci il, № 16, maddə 687, № 18, maddə 828; 1993-cü il, № 6, maddə 158; 1995-ci il, № 22, maddə 348) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1. Məcəlləyə aşağıdakı məzmunda 155-1-ci və 224-1-ci maddələr əlavə edilsin:

"M a d d ə 1 5 5 - 1 . **Vətəndaşlara dərman vasitələrinin buraxılması qaydalarının pozulması**

Apteklərdə resept təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılmasına, yetkinlik yaşına çatmayanlara dərman vasitələrinin buraxılması qaydalarının pozulmasına; habelə aptek təşkilatlarında dərman vasitələri və onların istehsalında istifadə olunan kimyəvi və başqa maddələr, tibb ləvazimatları, ətriyyat-kosmetika, şəxsi sanitariya-gigiyena malları istisna olmaqla, digər malların satılmasına görə —

vətəndaşlar minimum əmək haqqı məbləğinin iki mislindən beş mislinədək miqdarda; vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin on mislindən on beş mislinədək miqdarda cərimə olunurlar.

İnzibati tənbeh verildikdən sonra il ərzində təkrar törədilmiş eyni hərəkətlərə görə —

vətəndaşlar minimum əmək haqqı məbləğinin on mislindən otuz mislinədək miqdarda; vəzifəli şəxslər minimum əmək haqqı məbləğinin əlli mislindən yüz mislinədək miqdarda cərimə olunurlar.

M a d d ə 2 2 4 - 1 . **Dərman vasitələrinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirən orqanlar**

Dərman vasitələrinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirən orqanlar bu Məcəllənin 155-1-ci maddəsində nəzərdə tutulmuş inzibati hüquqpozmalara dair işlərə baxırlar.

İnzibati hüquqpozmalara dair işlərə dərman vasitələrinin keyfiyyətinə və təhlükəsizliyinə nəzarəti həyata keçirən orqanlar adından baxmağa və inzibati tənbeh etməyə müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxslərinin ixtiyarı vardır".

2. 208-ci maddənin birinci hissəsində "150—156" rəqəmləri "150—155, 156" rəqəmləri ilə əvəz edilsin.